Sahibkarın düşüncələri

# Astara rayonu dinamik inkişaf yolunda

Müstəqil Azərbaycan Respublikası dünyada baş verən iqtisadi böhrana baxmayaraq sosial-iqtisadi inkişaf sahəsində ilbəil yüksək nailiyyətlər qazanır. Bu gün hamı etiraf edir ki, Azərbaycan Cənubi Qafqazda lider dövlətdir. Qonşu respublikaların vəziyyəti ilə maraqlananda bir daha aydın olur ki, ölkəmiz bütün sahələrdə onları xeyli geridə qoyur. Şübhəsizdir ki, bütün bu uğurlar ölkə başçısının düşünülmüş, müdrik, xalqın xoşbəxtliyini nəzərdə tutan siyasətin uğurla yerinə yetirilməsinin nəticəsidir. Təkcə son dövrdə respublikada baş verən hadisələri göz önündən keçirsək, bir daha əmin olarıq ki, müstəqilliyimizin qorunması üçün ölkə rəhbərliyi tərəfindən qətiyyətli, cəsarətli addımlar atılır, xəyanət yolu tutanlar layiqli cəzalarını alır. Ən başlıcası odur ki, indiki mürəkkəb iqtisadi şəraitdə azad sahibkarlığın inkişafı müstəsna əhəmiyyət daşıyır. Hər bir dövlətin xoşbəxt gələcəyi özəl bölmənin, sahibkarlığın inkişafı ilə bağlıdır. Əgər biz müstəqil Azərbaycanımızın daha sürətli inkişafını istəyiriksə, sahibkarlığın hər vasitə ilə inkişafına, sahibkarların maneəsiz fəaliyyət göstərmələrinə nail olmalıyıq. Çox sevindiricidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmişə sahibkarların azad və maneəsiz fəaliyyət göstərmələrinə diqqət və qayğı göstərir, bu işdə onun tapşırıqlarını yerinə yetirməyənlərə qarşı qəti və cəsarətli tədbirlər görür.

Bu günlərdə ölkə başçısının Milli Məclisə verdiyi təklif əsasında sahibkarlığın daha səmərəli inkişafını təmin edən qanun qəbul edilib. Ən başlıcası isə sahibkarların yoxlanılması iki il müddətinə dayandırılıb. Ümumilikdə isə vergi yoxlamalarından başqa sahibkarların fəaliyyətinə müdaxilə edilməsinə birdəfəlik son qoyulub. Biz möhtərəm Prezidentimizin bu qərarını dəstəkləyir və böyük razılıq hissi ilə yüksək qiymətləndiririk. Mənə elə gəlir ki, ölkə başçısının son dövrdəki cəsarətli və qətiyyətli tədbirləri bütün Azərbaycan xalqının ürəyindəndir. Mən də bir sahibkar kimi başa düşürəm ki, bu qətiyyətli addımlar xalqımızın xoş gələcəyinin əsas təminatıdır.

Astara respublikamızın cənub qapısıdır. Qonşu İran İslam Respublikasından gələnlər müstəqil Azərbaycan haqqında ilk təəssüratı bizim gözəl Astaramızda gördüklərinə əsasən formalaşdırırlar. Açıq demək lazımdır ki, Astara rayonu son illər, sözün həqiqi mənasında, dinamik inkişaf yolundadır. Hətta mən deyərdim ki, 2013-2015-ci illərdə Astara əsl intibah dövrünü yaşayıb. Dediklərimi konkret faktlarla əsaslandırmaq istəyirəm. Rayon əhalisini uzun illərdən bəri narahat edən, lakin dəfələrlə vədlər verilməsinə baxmayaraq icra olunmayan həyati əhəmiyyətli vacib məsələlər son



üç il ərzində öz həllini tapıb. Əvvəllər Xəzər dənizinin sahillində olan avtomobil yolu dəniz səviyyəsinin qalxması ilə əlaqədar sıradan çıxmışdı. Ağır tonnajlı maşınlar şəhərin mərkəzi küçələrindən keçməklə həm əhalinin rahatlığını pozur, həm də asfalt yolları sıradan çıxarırdı. Şəhər sakinlərinin təklifi əsasında rayon rəhbərliyi tərəfindən qısa müddətdə daxili imkanlar hesabına həmin avtomobil yolu bərpa edilərək istifadəyə verildi. Suötürücü kanallar qazıldıqdan sonra ətrafdakı həyətyanı təsərrüfatlar sel sularından tamamilə mühafizə edildi. Ən böyük tarixi hadisə kimi onu qeyd etmək olar ki, dəniz sahilində bataqlıqlar və kol-kos basmış on hektardan çox ərazi qurudularaq 2-2.5 metr hündürlüyə qaldırılmış, həmin ərazidə hamını heyrətə salan, beynəlxalq standartlara uyğun möhtəşəm və yaraşıqlı dənizkənarı park-bulvar salındı. Bu gün həmin dənizkənarı park-bulvara gələn hər bir xarici qonaq öz heyrətini gizlədə bilmir. Ən başlıcası isə doğma Astaramızın sakinləri isti yay günlərində bu gözəl və hərtərəfli rahatlığı olan park-bulvarda rahat şəkildə dincəlir və bu gözəlliyi yaradanlara ürəkdən alqış deyir.

Dinamik inkişafı təsdiq edən əsas faktlardan biri də illərdən bəri xəyal kimi görünən, ürəklərdə bəslənən arzulara çevrilən ucqar dağ kəndlərinə rahat və asfalt yolların çəkilməsidir. Açığı bir neçə il bundan əvvəl heç kəsin ağlına gələ bilməzdi ki, qayalıqlar və keçilməz təpələrlə əhatə olunmuş Sım, Pəlikəş, Toradi, Hamoşam kəndləri istiqamətlərinə müasir tələblərə cavab verən rahat avtomobil yolları çəkiləcək. Bəli, bu gün Azərbaycan elə inkişaf dövründədir ki, illərdən bəri həsrətində olduğumuz arzularımız reallığa çevrilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il aprelin 11-də Astara rayonuna səfəri zamanı yeni çay emalı fabrikinin, Deqədi-Pəlikəş avtomobil yolunun və şəhərimizdəki dənizkənarı park-bulvarın açılışlarında iştirak etməsi, Taxtanakəran-Miki, Taxtanakəran-Toradi avtomobil yollarının çəkilişi, Astara şəhər 2 saylı tam orta məktəbinin ən müasir tələblərə uyğun olaraq yenidən qurulması barədə müvafiq sərəncamlar imzalaması xalqımıza göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bu gün Astaramız əsl tikinti meydançasını xatırladır. Ən ucqar kəndlərə təbii qaz xətti, rayon mərkəzinə, qəsəbə və kəndlərə içməli su xətti çəkilir. Dağ kəndlərini bir-birindən ayıran çaylar üzərində körpülər inşa edilir. Məhəllə və kəndlərarası yollar asfaltlaşdırılır. Ən ucqar dağ kəndi olan Sımda və Artupa kəndində yeni məktəb binaları istifadəyə verilir. Təkcə son illərdə onlarla yeni məktəb binaları tikilib istifadəyə verilib. Toradi, Hamoşam, Motlayataq, Asxanakəran, Əzərüd, Amboba, Pəlikəş kimi ən ucqar dağlıq ərazidə yerləşən kəndlərdə müasir tələblərə cavab verən yeni məktəb binalarını görəndə ürəyimiz dağa dönür. Dünyanı bürüyən iqtisadi böhran vəziyyətində Azərbaycan Respublikasının ən ucqar əyalətlərindən biri hesab edilən Astara rayonunda qısa müddətdə bu qədər genişmiqyaslı tikinti və quruculuq işlərinin şahidi olan hər bir obyektiv düşüncəli insan heyrətlənməyə bilmir. Doğrudan da kim dinamik inkişafın, intibahın şahidi olmaq istəyirsə Astaraya gəlsin, gözləri ilə burada yaradılanların şahidi olsun.

Bununla belə rayonumuzun gələcəkdə daha sürətli və dinamik inkişafına nail olmaq üçün bir sıra təkliflərimi vermək istəyirəm. Sahibkarlığın sərbəst inkişaf etməsi üçün rayonumuzda hər cür şərait yaradılıb. Yaxşı olardı ki, yerli sahibkarların daha təşəbbüskar və səmərəli fəaliyyət göstərmələri üçün güzəştli kreditlərin ayrılmasına diqqət artırılsın. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən respublika üzrə ən az yardım göstərilən Astara rayonunun sahibkarlarıdır. Bu geriliyi aradan qaldırmaq üçün Fondun mütəxəssisləri rayonumuzun sahibkarları ilə qarşılıqlı əlaqəli fəaliyyəti genişləndirməli, biznes planların tərtibində onlara müvafiq köməklik göstərməlidirlər. Astarada ehtiyacı olan aztəminatlı ailələr üçün sosial yaşayış binalarının tikintisinə də ehtiyac vardır. Əlbəttə, rayonumuzda demək olar ki, problemlərin əksər hissəsi həll olunub. Həllini gözləyən problemlər varsa bu barədə fikrimizi, təklif və iradlarımızı açıq şəkildə bildirə bilərik.

**Vidadi Mirzəyev,**
Astara rayonu, sahibkar